DP təqaüdçüsü

# “Ölkəmizin dayanıqlı inkişafına öz töhfəmi vermək istəyirəm”



“Azərbaycan müəllimi”nin növbəti müsahibi “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində ABŞ-nin Kolumbiya Universitetində “Mülki inşaat və mühəndislik mexanikası” ixtisası üzrə magistratura səviyyəsində təhsil alan Fuad Cəfərlidir. Qeyd edək ki, ABŞ-nin ən nüfuzlu universitetlərinin daxil olduğu “Sarmaşıq” liqasının (The Ivy League) üzvü olan Kolumbiya Universitetinin illik ortalama qəbul faizi 4%-dir. Yəni sənəd göndərənlərin sadəcə 4%-i burada təhsil almaq haqqı qazanır. F.Cəfərli Bakı şəhərində anadan olub. Paytaxtdakı 182 nömrəli tam orta məktəbi əla qiymətlərlə bitirib. Daha sonra Azərbaycan Memarlıq və İnşaat Universitetində “İnşaat mühəndisliyi” ixtisası üzrə bakalavr təhsili alıb. Bakalavr təhsili dövründə aktiv tələbələrdən olub. Rektorluq və dekanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb, bakalavr təhsilini qırmızı diplomla bitirib. Müsahibimiz uğurlarında ilk təhsil aldığı orta məktəbin, müəllimlərinin rolunu yüksək qiymətləndirir.

## Qarabağdakı layihələr ölkəmizin nüfuzu üçün böyük əhəmiyyət daşıyır

- Fikrimcə, orta məktəbin bir təməl kimi uşağın həm sosial, həm də təhsil həyatında əhəmiyyəti böyükdür. Uşaqların fənləri erkən yaşda sevməsi çox vaxt onların müəllimləri ilə bağlı olur. Əlbəttə, mənim də inkişafımda fənlərini sevdiyim müəllimlərin rolu böyük olub. Xüsusilə sinif rəhbərlərim Mirxanım Abdullayeva və Həlimə Bağırovanın əməyini xüsusi vurğulamalıyam.

*- “2022-2028 Dövlət Proqramı” sizin üçün nə kimi imkanlar açdı, proqramın əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- Ümumiyyətlə, proqram hər bir Azərbaycan vətəndaşına xaricdə ən yaxşı universitetlərdə tam təqaüdlü təhsil almaq hüququ verir. Mən də bu gənclərdən biri oldum ki, bu gün Amerika Birləşmiş Ştatlarının ən nüfuzlu ali təhsil müəssisələrindən olan Kolumbiya Universitetində (Columbia University) tam təqaüdlü təhsil alıram. Proqramın əhəmiyyəti sadəcə gənclərə uğurlu karyera, dövlət qulluğuna imtahansız işə qəbul hüququ verməklə qalmır, həm də ümumən onların savadlı, uğurlu gənclər kimi yetişməsində çox böyük əhəmiyyət daşıyır ki, bu da öz növbəsində Azərbaycanın gələcəyi deməkdir.

*- Gənclərimizin xaricdə təhsilə marağı güclənib. Bu marağı nə ilə izah edərdiniz?*

- Bu marağın əsas səbəbi ondan ibarətdir ki, əvvəllər xaricdə təhsil almağı məhdud maliyyə və ya digər səbəblərdən düşünməyən gənclər, indi artıq ümidlidirlər. Xaricdə təhsil almaq bahalı bir prosesdir. Xüsusilə ABŞ, Böyük Britaniya kimi ölkələrdə pulsuz təhsil çox çətindir. Gənclərimiz artıq inanırlar ki, Dövlət Proqramı çərçivəsində tam təqaüdlü təhsil almaq əlçatandır. Tövsiyəm o olardı ki, gördükləri işdə ən yaxşı olmağa çalışsınlar və heç vaxt ümidlərini itirməsinlər. Bu, hər zaman öz bəhrəsini verir.

*- Seçdiyiniz ixtisas barədə məlumat verərdiniz. “Mülki inşaat və mühəndislik mexanikası” sizin üçün nə dərəcədə maraqlı ixtisas sahəsidir?*

- Mən Azərbaycanda da “İnşaat mühəndisliyi” ixtisası üzrə təhsil almışam. Bu sahəni çox kiçik yaşlardan sevirəm. Fikrimcə, bu sahə dünyada hər zaman aktualdır. Bəşəriyyət var olduqca insanlar qurub-yaratmağa davam edəcəklər. Azərbaycanda isə neft sektoru çox inkişaf edib. İnşaat mühəndisliyinin də bu sahədə böyük əhəmiyyəti var, ancaq hazırda ölkəmiz qeyri-neft sektoruna da böyük diqqət ayırır. Bu yaxşıdır ki, inşaat mühəndisliyi bu sahədə də rahatlıqla tətbiq oluna bilir. Ümumiyyətlə, hər bir binanın və ya strukturun özünün hesablanan istismar dövrü var. Müəyyən dövrdən sonra ya təmir edilməlidir, yaxud yenidən qurulmalıdır. Ona görə, düşünürəm ki, bu sahə hələ uzun müddət aktual olacaq.

*- “Mülki inşaat” mütəxəssisi kimi gələcəkdə Azərbaycanda hansı sahələrdə töhfə verməyi düşünürsünüz?*

- Azərbaycan iqtisadi olaraq çox potensiallı və təbii sərvətlərlə zəngin ölkədir. Hazırda ölkəmizdə tikinti və daşınmaz əmlakla bağlı çox ciddi, indiyədək edilməmiş layihələrə imza atılır. Həm turizm sahəsində, həm neft sektorunda, həm də işğaldan azad olunan torpaqlarımızda. Bu inkişafa bacardığım qədər töhfə vermək istəyərdim. Tikinti və infrastruktur layihələr başqa bir mənada da ölkənin simvoluna çevrilir. “Formula 1” yarışları zamanı möhtəşəm görsənən “Crescent Bay” layihəsi, Heydər Əliyev Mərkəzi, Alov Qüllələri və ya neft sektorunda meqalayihə olan Bakı-Tbilisi-Ceyhan layihəsi. Bunların hamısı öz növbəsində ciddi tikinti tələb edən layihələrdir. Əlbəttə, mən də bu kimi böyük layihələrdə aparıcı rollarda olmaqdan çox xoşbəxt olardım.

Bundan başqa, hazırda həm Qarabağda, həm də ölkəmizin digər guşələrində çox böyük layihələrə imza atılır. Qarabağdakı layihələr sadəcə tikinti sektoru üçün yox, həm də ölkəmizin nüfuzu üçün böyük əhəmiyyət daşıyır. Bu səbəbdən mən də bu tarixi uğura və parlaq gələcəyə öz töhfəmi vermək istəyərəm.

*- Kolumbiya Universitetinin ali təhsil ənənələri, əcnəbi tələbələr üçün yaradılan şərait barədə nə deyərdiniz? Yaddaqalan, diqqətinizi cəlb edən hansı məqamları qeyd edə bilərsiniz?*

- Kolumbiya Universiteti əcnəbi tələbələrlə zəngindir. Burada dünyanın hər bir yerindən gələn insanlarla qarşılaşmaq olur. Universitetin tək ABŞ tarixində yox, digər ölkələrin də elmi-sosial həyatında böyük rolu olmuşdur. Diqqətimi cəlb edən məqam odur ki, burada tələbələr universitetə sadəcə təhsil müəssisəsi kimi baxmır, həm də özlərini bu ali məktəbin bir parçası kimi hiss edirlər. Ona görə hər kəs çalışır ki, universitetin sosial həyatında aktiv iştirak etsin.

*- Universitetdə tələbələrin elmə, elmi-tədqiqatlara cəlb olunması üçün nə kimi işlər görülür?*

- Burada tələbələrin fikirlərini və yeni ideyalarını hər zaman anlayışla qarşılayırlar. Ümumiyyətlə, innovasiyanın ən vacib açarı tələbələrin fikirlərinə və ideyalarına onlardan daha çox səlahiyyətli şəxslərin, universitet rəhbərliyi, akademik heyətin, professorların inanması və dəstək göstərməsidir. Kolumbiya və ABŞ-nin digər nüfuzlu universitetləri bunu çox yaxşı bacarır və bir çox innovasiyalara imza atırlar. Bununla yanaşı, universitetin infrastrukturu, kitabxanalarının çoxluğu və zənginliyi, 7/24 saat fəaliyyət göstərən oxu otaqları tələbələrin öz təhsillərinə fokuslanmalarında böyük əhəmiyyət daşıyır.

*- Gələcək hədəfləriniz barədə nə deyə bilərsiniz?*

- Gələcək hədəfim hazırda ortalama 4 üzərindən 3.9 olan balımı qorumaq və daha da yaxşılaşdırıb təhsilimi yüksək balla bitirməkdir. Gələcək planlarım isə ondan ibarətdir ki, seçdiyim bu sahədə ən uğurlulardan olum və biliyimi həm artırım, həm də digər sahələri də öyrənim. İnsan ömür boyu inkişaf etməlidir. Fikirləşirəm ki, ölkənin inkişafı onun fərdlərinin inkişafından çox asılıdır. Mən də bacardığım qədər inkişaf edərək həm cəmiyyətimizə, həm də ölkəmizin dayanıqlı inkişafına öz töhfəmi vermək istəyirəm.

**Oruc MUSTAFAYEV**

Azərbaycan müəllimi.- 2025.- 5 aprel, №11.- S.5.